# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA TƏBİƏT MÖVZUSU

**Tünzalə Seyfullayeva**

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı*
*tunzale-s@mail.ru*

Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir.

Nizami Gəncəvi böyük şair olmaqla yanaşı, həm də böyük alimdir. Dövrünün hər cəhətdən alim və fazil şəxsiyyəti olan Nizami Gəncəvi yaradıcılıq yolunda heç kəsi örnək götürməyən orijinal bir şairdir. Elmin bütün sahələrinə dərindən bələd olan dahi söz ustamız yaradıcılığında bütün mövzulara yer verimşdir. Nizami Gəncəvi ümumbəşəri şair olmaqla yanaşı, böyük vətənpərvər idi. O, bütün əsərlərində təsvir etdiyi hadisələri Azərbaycanla əlaqələndirməyə, Vətənin qüdrətli günlərini tərənnüm etməyə çalışmışdır. Onun yaradıcılığında Vətənə məhəbbət doğma xalq yolunda qəhrəmanlıq ideyası ilə birləşir. Dahi şair yaradıcılığında Allaha, Peyğəmbərə, İslam dininə, Vətəninə, xalqına olan sevgisini bəyan etmişdir. Vətənini, xalqını dərin məhəbbətlə sevməsinin nəticəsidir ki, Nizami öz əsərlərində Vətən təbiətinin gözəlliklərini böyük sənətkarlıqla təsvir etmişdir. “İsgəndərnamə” əsərində Bərdənin gözəl təbiətini təsvir edərək vətənpərvər – torpağın hər gülünə, çiçəyinə vurğun bir şair kimi çıxış edir:

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyulda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,

Şən ətəklərinə bağlamış kövsər.
Söyüdlük çöllərə vermişdir zinət,
Ağ bağı elə bil həqiqi cənnət.
Qırqovul yuvası hər sərv ağacı,
Oxuyur kəkliyi, ötür turacı.
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmş qayğı, kədərdən.
Reyhanı yaşıldır illər uzunu,
Hər çeşid naz-nemət bürümüş onu.
Yem üçün quş gələr bu gözəl yurda,
İstəsən "quş südü" taparsan burda.
Torpağı yoğrulmuş qızıl suyundan,
Elə bil hər yanda bitmiş zəfəran.
O yaşıl yerləri dolaşıb gəzsən,
Şənlikdən başqa bir xəyal görməzsən.

Təbiət Nizami şerinin ən canlı bir ünsürüdür. Təbiət qədər qüdrətli və onun qədər gözəl qələmindən sehirli bir fırça möcüzəsi ilə yaradılan qeyri-adi tablolar kimi çıxan canlı təbiət mənzərələri "Xəmsə"nin zövqündən doyulmayan səhifələrini təşkil edir. Hələ şairin bitki olsun, heyvan olsun, hətta cansız olsun, təsvir etdiyi təbiət ünsürlərində bir can və şüur təsvir etməsi və onları ruhi bir həyat ilə yaşatması özlüyündə ayrı aləmdir. Şairin "Yeddi gözəl" əsərindən "Xavərnəqin tərifi və Nemanın gözdən itməsi" adlı bölümdə aşağıdakı beytə nəzər salaq:

Gördü ki, binanın dörd yanı dağdır,
Bura behişt kimi səfalı bağdır.
Çay var, göz yaşı tək suyu durudur,
Sanki çay deyil, o həyat suyudur.
Bir yanda gözəl kənd söykənib qəsrə,
Bu kəndin məhsulu süd, qaymaq, kərə.
Kəndin önü səhra, arxası çəmən,
Havası dolmuşdu çiçək ətrindən.
Neman da sarayın damına qalxdı,
Oturub Bəhramla ətrafa baxdı.
Hər tərəf elə bil cənnətdi indi,
Qırmız laləydi, yaşıl çəməndi.
Çiçəklər örtmüşdü bütün düzəni,
Göyərçin məskəni, kəklik məskəni.

Dahi şair "Sirlər xəzinəsi"ndə təbiəti mühafizə məsələsinə xüsusi yer ayırmışdır. Şair insan səadəti üçün fərd ilə cəmiyyət arasında da harmoniya yaratmağın vacibliyini bildirir. İnsanların təbiətə münasibəti müsəlman filosoflarını Nizamidən çox-çox əvvəl düşündürürdü. Lakin həmin məsələ öz bədii həllini ilk dəfə olaraq Nizami yaradıcılığında tapmışdır. Bu problem poemanın "Yeddinci söhbət"ində öz əksini tapmışdır. Şairin təliminə görə, təbiət vahid, bölünməz bir orqanizmdir. İnsanlar da təbiətin bir hissəsidir. Təbiətin hər üzvü müəyyən bir vəzifə ifa edir. Təbiətin bir üzvünün zədələnməsi onun bütün cisminə xələl gətirə bilər, bunun nəticəsində də insanlar çox böyük təhlükəyə düçar olar.

Bu dünyanın hikməti çatmaz sona əzəldən,
Hər canlının şirindir canı ona əzəldən.
Üstünlükdə varlığın birincidir dünyada,
Hər canlı da sənintək bir incidir dünyada.
Qan bahası istəyən çoxdur deyə can alma,
Can verməyə qüdrətin yoxdur deyə can alma.

Şair dünyanın əşrəfi olan insana başa salmağa çalışır ki, hər bir canlı da sənin tək canlıdır, qiymətlidir, təbiətdə öz dəyəri var, heç bir canlını məhv etməyə can atmaq lazım deyil. Söhbətində insanları təbiətin və həyatın gözəlliklərindən zövq almağa və təbiəti məhv etməməyə çağırır. Təbiətdə heç bir artıq üzv yoxdur,

heyvanlar da insanlar kimi cana malikdirlər, onlar yalnız şüur etibarilə bizdən aşağı pillədə dururlar. Odur ki, insanlar heyvanları öz nəfslərinin əmrlərinə görə məhv etməməlidirlər, əksinə, onları qorumalı, təbiətin gözəlliyini mühafizə etməlidirlər.

Göründüyü kimi, təbiət mövzusu Nizami Gəncəvi yaradıcılığının əsas ana xətlərindən biridir. Təbiətin bizə bəxş etdiyi bütün gözəlliklərin qorunmasının təbliği dahi şairin əsərlərində geniş şəkildə öz əksini tapmışdır. Bütün bunları nəzərə alaraq, gələcəkdə bu istiqamətdə daha geniş şəkildə araşdırmaların aparılacağına əminik.